İqtisadiyyat.- S.7.



# Qarabağ uğrunda döyüşən qəhrəmanları unutmayaq!

## Şirin Mirzəyev (1947-1992)



Azərbaycanın Milli Qəhrəmanı, polkovnik-leytenant, Qarabağ müharibəsi şəhidi, əslən Şuşanın Mirzələr kəndindən olan Şirin Vəli oğlu Mirzəyev 1947-ci il yanvar ayının 5-də Xankəndidə dünyaya göz açmışdır. Nizami adına beynəlmiləl orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yola düşmüşdür. Bir müddət Bakıda yerləşən Daxili Qoşunlar alayında xidmət etdikdən sonra 1967-ci ildə Leninqrad (indiki Sankt-Peterburq) şəhərindəki Ali Siyasi Hərbi məktəbə qəbul olmuş və 1971-ci ildə hərbi təhsilini müvəffəqiyyətlə başa vurub, təyinatla İrəvana göndərilmişdir. Beş il orada xidmət etdikdən sonra isə Bakıya qayıtmışdır. Daha sonra 1976-cı ildə öz sinif yoldaşı Flora Qasımova ilə ailə qurmuşdur. Bu evlilikdən onların iki uşağı dünyaya gəlmişdir. 1988-ci ildə Moskvada Hərbi Siyasi Akademiyada təhsil alaraq, Daxili Qoşunlar alayında 15 illik xidmət yolu keçmişdir.

1991-ci ildə qəlbində alovlanan Vətən məhəbbəti, vətənə xidmət arzusu onu Ağdama çəkib gətirdi. Özü də elə bir vaxtda ki, onun kimi peşəkar hərbçilərə vətənin böyük ehtiyacı var idi. 1990-1991-ci illərdə Qarabağda ermənilərin təxribatları artdığından könüllü hərbi birləşmənin yaradılması artıq zəruri olmuşdu. Məhz buna görə də 1991-ci ilin avqustunda Ş.Mirzəyev Ağdama yollanır. 1991-ci ilin oktyabr ayında bütün maneələrə və təqiblərə baxmayaraq, polkovnik-leytenant Şirin Mirzəyev respublikamızda ilk nizami özünümüdafiə batalyonunu min bir əziyyətlə yaradır. Bu, o dövr üçün çox zəruri bir addım idi. Artıq 1992-ci ilin may ayında üç tabordan ibarət alay yaradıldı. Ş.Mirzəyev Ağdam rayonunun həm hərbi komissarı, həm də alay komandiri kimi məsul vəzifələri çox bacarıqla yerinə yetirirdi. 1992-ci ilin mart ayının 28-də Şirin Mirzəyevin və onun tərəfdarlarının səyi nəticəsində respublikada 1-ci olan tabor yaradıldı və ürəyi Vətən sevgisilə çırpınan podpolkovnik Şirin Vəli oğlu Mirzəyev Ağdam rayon ərazi özünümüdafiə taborunun komandiri seçildi. O, 18 iyun 1992-ci ildə Sırxavənd istiqamətində üç komandirlik etdiyi alayla birlikdə yenidən ön cəbhəyə yollanır. Tankları yerləşdirdikdən sonra hazırlıq üçün arxa cəbhəyə geri qayıdarkən onun avtomobili minaya düşür və o, şəhid olur. 1993-cü il fevral ayının 5-də Şirin Mirzəyevin şəxsi təşəbbüsü ilə yaradılmış tədris taboru ləğv edildi.

Ş.Mirzəyevin yolu respublikada örnək göstərilə biləcək döyüş yoludur. Belə ki, onun sərkərdəlik qabiliyyəti nəticəsində Fərrux, Pircamal, Qazançı, Ballıqaya, Qaraşlar, Başirli, Sırxavənd, Ağbulaq, Dəhraz, Naxçıvanik kəndləri erməni quldurlarından azad edildi.

Hərbi jurnalist İbrahim İbadoğlu Şirin Mirzəyevin həyatından bəhs edən "Sərkərdə" kitabının müəllifidir. Deputat Flora Qasımova Şirin Mirzəyevin həyat yoldaşıdır. Oğlu polis əməkdaşıdır, daxili işlər orqanlarında çalışır. Qızı isə ingilis dili müəlliməsidir.

### *Mükafatları*

1994-cü ildə "Qızıl Ulduz" medalı (ölümündən sonra), "Azərbaycanın Milli Qəhrəmanı" adı ilə təltif edilib.

Adına Bakı şəhərində küçə var. Xidmət etdiyi 836-cı hərbi hissənin həyatində abidəsi qoyulmuşdur.

2021-ci ildə Türkiyənin Bursa vilayətində Milli Qəhrəman Şirin Mirzəyevin adını daşıyan park açılıb.